**“Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 dekabr 2025-ci il
№ 551

**Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq və bərabərlik, qarşılıqlı fayda və hörmət prinsipləri əsasında, energetika sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinə kömək etmək üçün Tərəflərin qarşılıqlı niyyətindən çıxış edərək,

beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsiplərini rəhbər tutaraq,

1996-cı il sentyabrın 16-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında neft və qaz sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş”i nəzərə alaraq,

energetika sahəsində Azərbaycan-Qazaxıstan əməkdaşlığının inkişaf etdirilməsinin Tərəflərin dövlətlərinin sosial-iqtisadi inkişafına müsbət təsir edəcəyindən əmin olaraq,

energetika sahəsində əməkdaşlığı daha da dərinləşdirməyə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Məqsədlər**

Bu Sazişin məqsədi Tərəflər arasında bu Sazişin 3-cü maddəsində göstərilən sahələrdə əməkdaşlığı təşviq etməkdir.

Maddə 2
**Səlahiyyətli qurumlar**

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər aşağıda qeyd olunmuş səlahiyyətli orqanları təyin edirlər:

- Azərbaycan Respublikası Hökuməti adından Azərbaycan Respublikasının Energetika Nazirliyi; və
- Qazaxıstan Respublikası Hökuməti adından Qazaxıstan Respublikasının Energetika Nazirliyi.

Tərəflər səlahiyyətli orqanlarda baş verən hər hansı dəyişikliklər barədə diplomatik kanallar vasitəsilə bir-birilərini məlumatlandıracaqlar.

Maddə 3
Əməkdaşlıq sahələri

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlığı inkişaf etdirəcəklər:

- neft və qaz;
- bərpa olunan enerji mənbələri;
- qarşılıqlı maraq doğuran digər əməkdaşlıq sahələri.

Maddə 4

Əməkdaşlığın formaları

Bu Saziş çərçivəsində əməkdaşlıq, həmçinin aşağıdakı formalarda həyata keçirilir:
- Tərəflərin dövlətlərinin ərazisində neft və qaz hasilatı üzrə birgə fəaliyyət;
- enerji, o cümlədən neft-qaz layihələrində qarşılıqlı faydalı paylı iştirak;
- Qazaxıstan Respublikasında hasil edilən neftin ayrı-ayrı müqavilələrlə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisindən tranziti;
- bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının ərazisindən keçməklə Avropa regionu istiqamətində ixracı layihələrində iştirak;
- karbohidrogen hasilatı, nəqli, saxlanması və emalı, bərpa olunan enerjinin inkişafı, enerji səmərəliliyi və Tərəflərin razılaşdırdıqları digər sahələrdə birgə layihələrin həyata keçirilməsi;
- energetika məsələləri üzrə ikitərəfli məsləhətləşmələrin keçirilməsi;
- informasiyaların, ekspert rəylərinin, təcrübə, praktiki və elmi biliklərin və tədqiqatların nəticələrinin mübadiləsi;
- qarşılıqlı səfərlərin təşkili;
- təlim, ixtisasartırma və təhsil məqsədilə mütəxəssislərin mübadiləsi;
- qarşılıqlı investisiyaların stimullaşdırılması;
- Tərəflər tərəfindən razılaşdırıla bilən istənilən digər əməkdaşlıq formaları.

Tərəflər arasında qarşılıqlı maraq yarandığı təqdirdə, əməkdaşlığın formaları və metodları, eləcə də maliyyə öhdəliklərinə aid şərtlərə dair ayrıca beynəlxalq müqavilələr bağlanıla bilər.

Maddə 5
**Maliyyələşdirmə**

Tərəflərin hər biri bu Sazişin müddəalarının icrası ilə bağlı xərcləri, Tərəflər arasında başqa cür razılaşdırılmadığı təqdirdə, öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq müstəqil şəkildə öz öhdəsinə götürürlər.

Maddə 6
**Fikir ayrılıqlarının həlli**

Bu Sazişin təfsiri və (və ya) tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 7
**Digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər**

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 8
**Dəyişikliklər və əlavələr**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 9
**Yekun müddəalar**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların Tərəflər tərəfindən yerinə yetirildiyi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri onun növbəti beşillik müddətinin bitməsinə ən geci 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə bildiriş vermədikdə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Sazişin ləğv edilməsi onun qüvvədə olduğu müddətdə başlanmış və ləğv edildiyi vaxta qədər tamamlanmamış layihələr üzrə Tərəflərin öhdəliklərinə təsir göstərməyəcəkdir.

Astana şəhərində 2025-ci il 21 oktyabr tarixində, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Müddəaların təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilindəki mətnə müraciət edirlər.

| **Azərbaycan Respublikası** | **Qazaxıstan Respublikası** |
| --- | --- |

| Hökuməti adından | Hökuməti adından |
|---|---|
| *(imza)* | *(imza)* |